“Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünün təhsil müəssisələrində qeyd olunması haqqında” Təhsil Nazirliyinin 10 fevral 2011-ci il tarixli 247 nömrəli əmri ilə təsdiq olunmuş tədbirlər planının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri arasında “Azərbaycan çiçəklənən diyar” mövzusunda respublika rəsm müsabiqəsi keçirilsin.

2. Müsabiqənin əsasnaməsi, təşkilat komitəsi və münsiflər heyətinin tərkibi təsdiq olunsun (əlavə olunur).

3. Ali təhsil müəssisələrinin rəhbərləri müsabiqənin keçirilməsini təmin etsinlər.

4. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsi (A. İbrahimov) müsabiqənin yüksək səviyyədə keçirilməsi üçün lazımi təşkilati işləri həyata keçirsin.

5. İqtisadiyyat şöbəsi (Ş. Əliyev) müsabiqənin qaliblərinin mükafatlandırılması üçün 305 (üç yüz beş) manat məbləğində vəsait ayrılmasını təmin etsin.

6. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmri “Azərbaycan müəllimi” qəzetində dərc etdirsin.

7. Ümumi şöbə (X. Fərəcov) əmr və əsasnamənin çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

8. Əmrin icrasına nəzarət nazir müavini Q.Novruzova həvalə olunsun.

***Misir MƏRDANOV***

***Azərbaycan Respublikasının təhsil naziri***
***12 oktyabr 2011-ci il***

***№1648***

---

**Əlavə:**

**Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş “Azərbaycan çiçəklənən diyar” mövzusunda ali məktəb tələbələri arasında keçirilən respublika rəsm müsabiqəsinin Əsasnaməsi**

**Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş “Azərbaycan çiçəklənən diyar” mövzusunda ali məktəb tələbələri arasında keçirilən respublika rəsm müsabiqəsinin Təşkilat Komitəsi**